# MEK HESABAT 2013-2017

2011-ci il noyabrın 28-də Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanası (MEK) üçün yeni binanın təməlqoyma mərasimi keçirilmişdir.[13] 2014-cü il mayın 5-də AMEA Mərkəzi Elmi Kitabxanasının yeni binasının açılışı olmuş, açılışda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və AMEA-nın prezidenti akademik Akif Əlizadə iştirak etmişdir. AMEA-nın prezidenti, akademik Akif Əlizadə AMEA-nın Mərkəzi Elmi Kitabxanasının ölkə başçısının imzaladığı "Azərbaycan Milli Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" 29 aprel 2011-ci il tarixli Sərəncamı ilə inşa olunduğunu diqqətə çatdırmış və binanın istifadəyə verilməsinin Azərbaycan elmi üçün böyük töhfə olduğunu qeyd etmişdir.

Akademiyanın struktur bölməsi kimi fəaliyyət göstərən MEK kitabxana-informasiya sahəsində fəaliyyət göstərir. Zəngin tarixə və ənənələrə malik olan Mərkəzi Elmi Kitabxana AMEA sistemində aparılan bütün kompleks və sahəvi problemlər üzrə ixtisaslaşdırılmış məlumat-informasiya mərkəzi və ölkə miqyasında baş elmi-texniki informasiya müəssisəsidir. MEK Akademiya sistemindəki 40 kitabxananın fəaliyyətini tənzimləyən və istiqamətləndirən metodik mərkəzdir.

2014-cü ilin. Hesabat dövrü ərzində MEK-də beynəlxalq miqyaslı forumlar, festivallar, konfranslar və simpoziumlar ilə yanaşı bir sıra görkəmli mütəfəkkir, dövlət, elm və mədəniyyət xadimlərinin, yazıçıların yubileylərinə həsr olunmuş tədbirlər çərçivəsində yubilyarların əsərlərindən ibarət kolleksiyalar sistemləşdirilərək rəqəmsallaşdırılmış, Milli Rəqəmsal Yaddaş bazasına daxil edilmiş, materialların rəqəmsal və çap formatda sərgisi hazırlanaraq nümayişə qoyulmuşdur.

Hesabat dövrü ərzində MEK-də müasir kitabxana-informasiya formatina keçid mərhələsi başa çatmış, struktur və kadr islahatları aparılmışdır. Daxil olan informasiya vahidlərinin konveyer üsulu ilə ardıcıl emalı, komplektləşdirilməsi, kataloqlaşdırılması, rəqəmsallaşdırılması və fondların mühafizəsi bölməsindən biblioqrafik sorğular və oxuculara xidmət bölmələrinə sistemli şəkildə hərəkəti təmin edilmişdir. "Milli Rəqəmsal Yaddaş", "İnformasiya texnologiyalarının hazırlanması və tətbiqi", "İnnovativ layihələr", "Sərbəst Elektron Resurslar", "Proqramlaşdırma", "Elektron resursların əlaqələndirilməsi", "Beynəlxalq və ictimai əlaqələr", "Təlimlər", "Bərpa və Konservasiya" adlı yeni şöbələr, həmçinin "Fondların formalaşdırılması" və İctimai Səhiyyə bölmələri yaradılmışdır. Bundan başqa, kitabxananın Elmi Şurası ləğv edilmiş, əvəzində isə İdarə Heyəti, Daxili Nizam-intizam komissiyası və İnformasiya Mənbələrinin Qiymətləndirilmə Komissiyası yaradılmışdır.

AMEA-nın əsas binasından MEK üçün inşa edilmiş yeni binaya MEK-in kitab fondları, avadanlıqlar və əməkdaşlar köçürülmüşdür. Kitab, qəzet, jurnal və başqa formatda olan sənədlər yoxlanılmış, əsas və yardımçı fondlarda yerləşdirilmiş və sənədləşdirilmişdir. Fodlar nizamlanmış, kataloqlar bərpa edilmiş, təhvil-təslim bitmişdir, işçi heyət təlimatlandırılmış, xidmət proqram modulları hazırlanmış, 2015-ci ilin sentyabr ayında tam həcmdə fəaliyyətə başlamış və yeni binada oxucuların istifadəsinə verilmişdir.

2016-cı ildə Kitabxana xidmətlərinin göstərilməsi üçün ən əhəmiyyətli proqram platformaları hazırlanmış, VİS-LİB – MEK Kitabxana xidmətlərinin avtomatlaşdırılmış idarəetmə və nəzarət platforması və VİS-HR MEK İnsan resurslarının avtomatlaşdırılmış idarəetmə və nəzarət platforması, "Təşkilati strukturun idarə edilməsi" və "Davamiyyət, icazələrin alınması və nizam-intizam" modulları" hazırlanmış və istifadəyə verilmişdir.

Milli Rəqəmsal Yaddaşın (MRY) qeydiyyat, rəqəmsallaşdırma və qorunub saxlanılma prosesləri işlək səviyyəyə gətirilmiş MRY-a aid edilən istənilən informasiya vahidinin (sənədinin) konveyer üsulu ilə emalı sistemi qurulmuşdur.

Vikipediya elektron ensiklopediyasının Azərbaycanca dil bölməsində məqalələrin yerləşdirilməsi və redaktə edilməsi sistem şəklini almış, MEK əməkdaşları tərəfindən və MEK əməkdaşlarının Vikipediya mövzusunda keçdiyi təlim iştirakçıları tərəfindən SER-də yerləşdirilən məqalələrin sayı sürətlə artmış, Vikipediya elektron ensiklopediyasının Azərbaycanca dil bölməsində Azərbaycan Milli Ensiklopediyasından məqalələrin yerləşdirilməsinə başlanılmışdır. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 174-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrasını təmin etmək məqsədilə MEK tərəfindən irəli sürülmüş təkliflərə həsr olunmuş konfrans keçirilmişdir. Konfransda mövcud qanuna MEK tərəfindən irəli sürülmüş əlavə və dəyişikliklərlə bağlı təkliflər səsləndirilmişdir.

2017-ci ildə Kitabxana xidmətlərinin avtomatlaşdırılmış idarəetmə və nəzarət (VİS-LİB – MEK) platformasının bütün modulları hazırlanıb istifadəyə verilmişdir.

Milli Rəqəmsal Yaddaş (MRY) bazası elmiləşdirilmiş, işlək səviyyəyə gətirilmiş MRY layihəsi çərçivəsində elmi mənbələrin sistemləşdirilmiş qeydiyyat siyahısının birinci hissəsi hazırlanmışdır. AMEA-nın elmi müəssisələrinin əksəriyyəti tərəfindən MRY bazasına milli yaddaşa salınması tövsiyə olunan sənədlərin siyahısı təqdim olunmuş, Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafına Dəstək Fondu Milli Rəqəmsal Yaddaş layihəsinə dəstək vermişdir.

Sərbəst Elektron Resurslara aid edilən Azərbaycandilli Vikipediyanın mövqeyi AMEA institutları və kənar təşkilatlara sistemli şəkildə keçirilmiş təlimlər və təlimsonrası əlaqələndirmə nəticəsində 58-ci pillədən 51-ci pilləyə irəliləmişdir. AzVikipediyanın işlək modeli hazırlanmış və tətbiqinə başlanmışdır, ümumi məqalələrin sayının artması ilə yanaşı elmi əsaslandırılmış etibarlı məqalələrin sayı 129462-yə qədər artmış, 9 Viki qayda tərcümə edilərək azərbaycanca Vikipediyanın qaydalarına əlavə edilmiş, təlimlərin keçirilməsi üçün elektron dərslik tərtib olunmuş və Youtube paylaşım sistemində yerləşdirilmişdir.

E-kataloqda və fondlarda rutin axtarış nəticəsində Azərbaycan kitabxanalarında mühafizə olunan, qədim yunan dilindən latın dilinə tərcümə edilmiş 17 ən qədim kitabaşkarlanmışdır. Kitablar rəqəmsallaşdırılmış, onlardan 8-nə MEK könüllüsü tərəfindən annotasiya hazırlanmış və kitabxana istifadəçilərinə təqdim olunmuşdur. Kitablardan ən qədimi Leonardi Aretininin 1508-ci il tarixli "Economicorum Aristotelis cum commentariis"-dir.

Kitabxananın beynəlxalq və ictimaiəyyətlə əlaqələri yenidən qurulmuş, sosial media və şəbəkələrdə fəaliyyət artmışdır.

MEK fondlarındakı sənədlərin sayı – 1560593, nadir fondlardakı sənədlərin sayı – 15037, oxucuların sayı – 4000, elektron kataloqda qeydə alınmış sənədlərin sayı – 90715, Milli Rəqəmsal Bazada sənədlərin sayı – 8500, kolleksiyaların sayı – 45, müəllif hüququ müqavilələrinin sayı – 48, beynəlxalq və yerli əhəmiyyətli tədbirlərin sayı – 481-dir.

Son 5 il ərzində Mərkəzi Elmi Kitabxananın tətbiq etdiyi layihələr sırasında tam müasirləşdirilmiş elmi-xidmət fəaliyyəti, innovativ xarakterli idarəetmə və informasiya təminatı ilə yanaşı, kitabxana-informasiya məkanında ilk dəfə olaraq Vahid idarəetmə

sisteminin hazırlanması və tətbiqi, Milli yaddaşa aid edilən sənədlərin rəqəmsal bazada sistemləşdirilməsi, eləcə də Sərbəst Elektron Resurslar sahəsində yeni işlək modelin tətbiqi nəticəsində AzVikipediyada mövqelərin irəliləməsi xüsusi yer tutur.